# SAHİBKARLIQ FƏALİYYƏTİNİN LİSENZİYALAŞDIRILMASI














# Sahibkarlar üçün metodiki vəsait

# Azərbaycanda sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması

Azərbaycanda sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin təmin edilməsi, bu sahədə qanunvericiliyin, inzibati prosedurların və dövlət-sahibkar münasibətlərinin təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə lisenziyaların verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulmuş əsas vəzifələrdən biridir və bu istiqamətdə ardıcıl olaraq silsilə tədbirlər görülmüşdür. Bu sahədə mühüm hadisələrdən biri Azərbaycanda ilk dəfə olaraq "Lisenziyalar və icazələr haqqında" Qanunun qəbul edilməsi olmuşdur. Qanuna əsasən lisenziya tələb olunan fəaliyyət növləri və icazələr aşağıdakı meyarlardan biri nəzərə alınmaqla müəyyən edilir:

- fəaliyyət növü dövlət təhlükəsizliyinə təsir edir;
- fəaliyyət növü məhdud təbii ehtiyatlardan istifadəni nəzərdə tutur;
- fəaliyyət növü ətraf mühitin ekoloji vəziyyətinə mənfi təsir göstərə bilər;
- fəaliyyət növü qeyri-məhdud sayda şəxslərin həyatı, sağlamlığı və əmlakı üçün təhlükə doğurur.

Ölkədə sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması sahəsində aparılmış islahatların nəticəsi olaraq lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı əhəmiyyətli dərəcədə azalmışdır.
Qanunvericiliyə əsasən hazırda lisenziyalar müddətsiz (sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə istisna olmaqla) verilir.
Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2016-cı il tarixli 866 nömrəli Fərmanı ilə lisenziya verilməsi sahəsində dövlət siyasətini və metodiki rəhbərliyi həyata keçirən səlahiyyətli orqan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi müəyyən edilmişdir.

# Lisenziya nədir?



**Lisenziya** – müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün ərizəçiyə lisenziya verən orqan tərəfindən verilən rəsmi sənəddir.



**Ümumi lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünü onun bütün alt növlərinin hər biri üçün ayrılıqda xüsusi lisenziya almadan həyata keçirmək hüququ verən lisenziyadır.



**Xüsusi lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünün bir və ya bir neçə alt növünü həyata keçirmək hüququ verən lisenziyadır.

# Hansı hallarda lisenziyanın əlavəsi verilir?

- lisenziyada göstərilən fəaliyyət növü ərazi baxımından ayrı-ayrı obyektlərdə həyata keçirildiyi halda;
- özəl tibb fəaliyyəti, tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işləri, tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri, tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi fəaliyyət növləri ilə əlaqədar lisenziya alınması üçün müraciət edildikdə.



# Ərizəçi kim ola bilər?

**Ərizəçi** – lisenziyanın alınması üçün lisenziya verən orqana ərizə ilə müraciət edən, təşkilati hüquqi formasından asılı olmayaraq, hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi və fərdi sahibkardır.

# Hara müraciət edilməlidir?



Mövcud qanunvericiliyə əsasən hazırda 23 sahibkarlıq fəaliyyəti növü üzrə lisenziyalar (dövlət təhlükəsizliyindən irəli gələn hallar, habelə maliyyə bazarları sahəsində fəaliyyətlər istisna olmaqla) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilir.
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin tabeliyində olan KOB evləri, “Lisenziyalar və icazələr” portalı və 11 “ASAN xidmət” mərkəzi (5 saylı Bakı, Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Quba, Qəbələ, Masallı, Mingəçevir, İmişli və Şəki) vasitəsilə lisenziyaların verilməsi üçün sahibkarlara xidmətlər göstərilir, ərizələrin qəbulu və lisenziyaların verilməsi həyata keçirilir.



“ASAN xidmət” mərkəzlərində və KOB evlərində sahibkarlara lisenziyaların verilməsi ilə yanaşı vaxt itkisi və əlavə sənədləşmə işləri ilə qarşılaşmamaları üçün lisenziya almaq istəyən sahibkarlara Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən məsləhət xidmətləri də göstərilməkdədir.

asan xidmət

KOB

LİSENZİYALAR Və İCAZƏLƏR PORTALI

# Tələb olunan sənədlər hansılardır?

- ərizə;
- ərizəyə əlavə olunan sənədlər. Ərizəyə ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti, ərizəçi fərdi sahibkar olduqda isə şəxsiyyət vəsiqəsinin surəti, ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti, ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti, lisenziya şərtlərinin yerinə yetirilməsini təsdiq edən sənədlər əlavə edilir.
- Fəaliyyət növünün xüsusiyyətindən asılı olaraq, Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən şərtlərin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi əlavə şərtlərin yerinə yetirildiyini təsdiq edən sənədlər (*Nazirlər Kabinetinin* 7 noyabr 2002-ci il *tarixli 174 nömrəli Qərarı*).


















# Müraciətə hansı müddətdə baxılır?

## Ərizənin baxılması müddəti və aidiyyəti rəyin alınması



Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, lisenziya verən orqan ərizənin qeydiyyata alındığı tarixdən 5 iş günündən gec olmayaraq həmin çatışmazlıqların aradan qaldırılması barədə məlumatı ərizəçiyə bildirir. Ərizəçi həmin çatışmazlıqları ən geci 10 iş günü ərzində aradan qaldırmalıdır. Bu zaman lisenziyanın verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət lisenziya verilməsi müddətinə daxil edilmir. Ərizəçi təqdim edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları 10 iş günü ərzində aradan qaldırmadıqda lisenziya verən orqan ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edir və bu barədə məlumatı 2 iş günü müddətində ərizəçiyə bildirir. Ərizəçi çatışmazlıqları aradan qaldırdıqdan sonra lisenziyanın alınması üçün təkrar ərizə ilə lisenziya verən orqana müraciət edə bilər.

Lisenziya verən orqan təqdim edilən ərizəyə baxarkən sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətlərindən asılı olaraq, qanunvericiliklə nəzərdə tutulmuş qaydada aidiyyəti dövlət orqan və müəssisələrinin rəyini (razılığını) alır.

Fəaliyyət növünün həyata keçirilməsi ilə bağlı obyektin lisenziyanın alınması üçün təqdim edilən ərizəyə əlavə olunan sənədlərdə göstərilən məlumatlara uyğunluğu yerində qiymətləndirir.



Lisenziya verən orqan rəy (razılıq) alınması üçün aidiyyəti dövlət orqanına müraciət etdikdə, ona 7 iş günü müddətində baxılaraq cavab verilir. Aidiyyəti dövlət orqanlarının əsaslandırılmış müraciəti ilə həmin müddət 20 gündən çox olmayan müddətə uzadıla bilər. Rəy verməsi üçün müəyyən olunan müddət lisenziya verilməsi ilə bağlı müddətə daxil edilmir. Bu müddət ərzində rəy (razılıq) bildirilmədikdə rəy müsbət (razılıq verilmiş) hesab olunur. Mənfi rəy, habelə razılığın verilməsindən imtina müvafiq qanuna istinad edilməklə əsaslandırılmalıdır.

Lisenziya verən orqan təqdim olunmuş sənədlərə baxılmasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 10 iş günündən gec olmayaraq lisenziyanı verir və ya verilməsindən imtina haqqında inzibati akt qəbul edir.

Lisenziyanın verilməsindən imtina edilməsi ərizəçinin yenidən müraciət etməsinə mane olmur.

# Lisenziyadan necə istifadə edilməlidir?

Lisenziyanın sahibi lisenziyadan yalnız özü istifadə edə bilər və onu başqa şəxsə verə bilməz. Lisenziyanın qüvvəsi lisenziya sahibinin təsisçi (iştirakçı) olduğu hüquqi şəxslərə, habelə lisenziyanın sahibi ilə birgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq barədə müqavilə əsasında fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir.

Əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi obyektlə bağlıdırsa və sahibkara fəaliyyət ünvanına əsasən lisenziya verilmişdirsə, sahibkar həmin lisenziya ilə digər ünvanda fəaliyyət göstərə bilməz.

# Lisenziya hansı hallarda yenidən rəsmiləşdirilir?

- lisenziyanın sahibi olan hüquqi şəxs yenidən təşkil edildikdə;
- lisenziyanın sahibi olan hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin adı və ya hüquqi ünvanı dəyişdikdə;
- lisenziyanın sahibi olan fərdi sahibkarın soyadı, adı, atasının adı və ya fəaliyyət ünvanı dəyişdikdə;
- lisenziya sahibinin ümumi lisenziyada göstərilən fəaliyyət növünün bir və ya bir neçə alt növünü həyata keçirmək hüququna xitam verildikdə.



Lisenziyanın sahibi və ya onun hüquqi varisi lisenziyanın rəsmiləşdirilməsi üçün əsasların yarandığı gündən 5 iş günündən gec olmayaraq lisenziyanın yenidən rəsmiləşdirilməsi üçün lisenziya verən orqana ərizə ilə müraciət etməlidir. Həmin ərizəyə yenidən rəsmiləşdirilməli olan lisenziya, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, fərdi sahibkarın şəxsiyyət vəsiqəsinin və vergi uçotuna alınması haqqında şəhadətnamənin surətləri əlavə olunur.

# Lisenziyanın dublikatı nə vaxt verilir?

Lisenziya itirildikdə və ya zədələndikdə lisenziyanın sahibi lisenziyanın dublikatının verilməsi üçün lisenziya verən orqana ərizə ilə müraciət edir.

Lisenziyanın dublikatının verildiyi müddətdə lisenziyanın sahibi öz fəaliyyətini lisenziya verən orqana təqdim etdiyi ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında arayış əsasında həyata keçirir. Lisenziyanın dublikatı itirilmiş və ya zədələnmiş lisenziya ilə eyni hüquqi qüvvəyə malikdir.

# Lisenziya hansı hallarda dayandırılır?

- lisenziya sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- lisenziyanın sahibi lisenziya şərtlərinin pozulması hallarının aradan qaldırılmasına dair lisenziya verən orqanın, həmçinin müvafiq nəzarət orqanının göstərişlərini yerinə yetirmədikdə;
- Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallarda.

Lisenziya şərtlərinin pozulması hallarında lisenziyanın sahibi lisenziyanın dayandırıldığı müddət bitənədək lisenziyanın dayandırılmasına səbəb olan halları aradan qaldırmalı və nəticəsi barədə 3 iş günü müddətində lisenziya verən orqana yazılı məlumat verməlidir. Lisenziya həmin halların aradan qaldırılması barədə lisenziya sahibinin təqdim etdiyi yazılı məlumata əsasən lisenziya verən orqanın inzibati aktı ilə bərpa olunur.

# Lisenziya hansı hallarda ləğv edilir?





- lisenziyanın sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- lisenziyanın sahibi olan hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə;
- lisenziyanın sahibi olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə;
- məhkəmənin müvafiq qərarı olduqda;
- lisenziyanın verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə;
- lisenziyanın sahibi lisenziyanın dayandırıldığı müddət bitənədək lisenziyanın dayandırılmasına səbəb olan halların aradan qaldırılması ilə bağlı lisenziya verən orqana yazılı məlumat verilmədikdə;
- lisenziyada göstərilmiş fəaliyyət növü lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısından çıxarıldıqda;
- lisenziyanın (icazənin) müddəti bitdikdə;
- Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallarda.

# Lisenziyanın verilməsi üçün dövlət rüsumu nə qədərdir?

Lisenziyanın verilməsinə görə dövlət rüsumunun dərəcələri və ödənilməsinin xüsusiyyətləri "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci və 23-cü maddələri ilə müəyyən olunmuşdur.



Mövcud qanunvericiliyə əsasən lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız Azərbaycan Respublikasının regionlarında həyata keçirildikdə, həmin fəaliyyət növü üzrə müəyyən edilmiş dövlət rüsumunun 50 faizi (regional televiziya yayımı və regional radio yayımı istisna olmaqla) ödənilir.

Eyni zamanda, lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin bir neçə alt növünün eyni vaxtda həyata keçirilməsi üçün müraciət edildikdə, həmin alt növlər üçün müəyyən edilmiş ən yüksək dövlət rüsumu ödənilir. Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin müvafiq növü üzrə bir və ya bir neçə iş və xidmətlərin həyata keçirilməsi üçün müraciət edildikdə, iş və xidmətlərin sayından asılı olmayaraq həmin fəaliyyət növü üçün müəyyən edilmiş dövlət rüsumu ödənilir.

Lisenziya verildikdən sonra lisenziya sahibi lisenziyada göstərilən fəaliyyət növünü başqa obyektlərdə də həyata keçirmək və ya lisenziyanın əlavəsində göstərilməyən iş və xidmətlərlə məşğul olmaq üçün lisenziya əlavəsinin alınması məqsədi ilə müraciət etdikdə, obyektlərin və ya iş və xidmətlərin sayından asılı olmayaraq müvafiq fəaliyyət növünə lisenziya verilməsinə görə müəyyən edilmiş dövlət rüsumunun 50 faizi ödənilir.




Həmçinin, sahibkarlar lisenziyanın yenidən rəsmiləşdirilməsi və bərpası üçün dövlət rüsumunun ödənilməsindən azad edilmişdirlər.

# Lisenziya tələb olunan fəaliyyət növləri hansılardır?

**Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri**

| № | Fəaliyyət növünün adı | Dövlət rüsumunun məbləği *(manatla)* |
|---|---|---|
| 1. | Toksiki istehsalat tullantılarının: | |
| 1.1. | utilizasiyası | 550 |
| 1.2. | zərərsizləşdirilməsi | 550 |
| 2. | Özəl tibb fəaliyyəti | 2250 |
| 3. | Əczaçılıq fəaliyyəti: | |
| 3.1. | dərman vasitələrinin istehsalı | 2250 |
| 3.2. | dərman vasitələrinin topdansatışı | 20000 |
| 3.3. | dərman vasitələrinin pərakəndə satışı | 1000 |
| 4. | Prekursorların: | |
| 4.1. | istehsalı | 250 |
| 4.2. | idxalı | 250 |
| 4.3. | ixracı | 250 |
| 4.4. | tranzit nəql edilməsi | 250 |
| 5. | Təhsil fəaliyyəti: | |
| 5.1. | dövlət məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, məktəbəqədər təhsil müəssisələri | 1250 |
| 5.2. | dövlət ümumi təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) | 10000 |
| 5.3. | dövlət peşə təhsili müəssisələri istisna olmaqla, peşə təhsili müəssisələri | 2000 |
| 5.4. | dövlət orta ixtisas təhsili müəssisələri istisna olmaqla, orta ixtisas təhsili müəssisələri | 2000 |
| 5.5. | dövlət ali təhsil müəssisələri istisna olmaqla, ali təhsil müəssisələri | 13750 |

| | | |
|---|---|---|
| 5.6. | dövlət əlavə təhsil müəssisələri istisna olmaqla, əlavə təhsil müəssisələri | 1500 |
| 5.7. | dini orta ixtisas təhsili müəssisələri | 2000 |
| 5.8. | ali dini təhsil müəssisələri | 13750 |
| 6. | Rabitə xidmətləri: | |
| 6.1. | telefon (məftilli) | 2500 |
| 6.2. | radiotrank və simsiz telefon | 2500 |
| 6.3. | Çıxarılmışdır | |
| 6.4. | İP-telefoniya (internet telefoniya) | 50000 |
| 6.5. | ölkədaxili telekommunikasiya kanallarının təşkili | 2500 |
| 6.6. | beynəlxalq telekommunikasiya kanallarının təşkili | 5500 |
| 6.7. | məlumatların ötürülməsi (data) | 3000 |
| 6.8. | sürətli poçt xidməti | 1250 |
| 7. | Çıxarılmışdır | |
| 8. | Radioaktiv və ionlaşdırıcı şüalar verən maddələrin tullantılarının saxlanması | 550 |
| 9. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması | 250 |
| 10. | Maye və təbii qaz təsərrüfatı obyektlərinin: | |
| 10.1. | quraşdırılması | 1100 |
| 10.2. | istismarı | 1100 |
| 11. | Çıxarılmışdır | |
| 12. | Liftlərin quraşdırılması və təmiri fəaliyyəti | 250 |
| 13. | Attraksionların istismarı | 1250 |
| 14. | Qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri | 1250 |
| 15. | Təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlığın və texniki qurğuların diaqnostikası və digər texniki yoxlamaların keçirilməsi | 1250 |
| 16. | Yanğından mühafizə fəaliyyəti: | |
| 16.1. | müəssisələrin və yaşayış məntəqələrinin müqavilə əsasında yanğınlardan qorunması | 1800 |
| 16.2. | yanğınsöndürmə texnikası məhsulunun istehsalı və satışı, sınaqlarının keçirilməsi | 1800 |

| | | |
|---|---|---|
| 16.3. | yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri | 1800 |
| 16.4. | yanğınsöndürmə ləvazimatının, ilkin yanğınsöndürmə vasitələrinin təmiri və onlara xidmət, yanğınsöndürmə vasitələrinin keyfiyyətinin bərpası | 1800 |
| 17. | Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işləri | 550 |
| 18. | Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri | 550 |
| 19. | Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi | 550 |
| 20. | Özəl baytarlıq xidməti fəaliyyəti | 220 |
| 21. | Baytarlıq preparatlarının: | |
| 21.1. | istehsalı | 1500 |
| 21.2. | satışı | 220 |
| 22. | Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin: | |
| 22.1. | istehsalı | 1000 |
| 22.2. | idxalı | 500 |
| 23. | Fərdi ovçuluq təsərrüfatlarının təşkili | 550 |
| 24. | İstehsal üçün yabanı dərman bitkiləri xammalının tədarükü | 250 |
| 25. | Müxtəlif növ möhürlərin və ştampların hazırlanması | 1100 |

**Dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri**

| № | Fəaliyyət növünün adı | Dövlət rüsumunun məbləği (manatla) |
|---|---|---|
| 1. | Özəl mühafizə fəaliyyəti | 1500 |
| 2. | İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət | 1100 |
| 3. | Biometrik texnologiyaların yaradılması və həmin texnologiyalara xidmət göstərilməsi | 1100 |
| 4. | Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi | 1100 |
| 4-1. | sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) | 1000000 |
| 5. | Audiovizual media fəaliyyəti: | |
| 5.1. | ümumölkə yerüstü televiziya yayımçısı | 5000 |
| 5.2. | ümumölkə yerüstü radio yayımçısı | 2500 |
| 5.3. | regional yerüstü televiziya yayımçısı | 1500 |
| 5.4. | regional yerüstü radio yayımçısı | 500 |
| 5.5. | peyk yayımı həyata keçirən platforma yayımçısı | 2500 |
| 5.6. | peyk yayımı həyata keçirməyən platforma yayımçısı | 1500 |
| 5.7. | sifarişli yayım xidməti provayderi | 500 |
| 5.8. | sadə platforma operatoru | 1500 |
| 5.9. | universal platforma operatoru | 2500 |
| 5.10. | multipleks operatoru | 2500 |

Əlavə suallar olduğu təqdirdə "ASAN xidmət" mərkəzlərinə, KOB evlərinə müraciət edilə və ya İqtisadiyyat Nazirliyinin **Çağrı Mərkəzi** ilə əlaqə saxlanla bilər.